**Quba rayonunda “Azərbaycan 2020: Gələcəyə Baxiş” İnkişaf Konsepsiyasının “İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması” bölməsi çərçivəsində nəzərdə tutulan çərçivəsində nəzərdə tutulan öhdəliklərin icrasının qiymətləndirilməsi**

# MONİTORİNQİ

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun icra etdiyi İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi (Swiss Agency for Development and Cooperation) "Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" (AİTEMP) qrant layihəsi çərçivəsində növbəti monitorinq səfəri 2016-ci il avqustun 19-20-də Qubad rayonunda olmuşdur. Səfərdə “Azərbaycan 2020: Gələcəyə Baxiş” İnkişaf Konsepsiyasının “Informasiya- kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi” bölməsi çərçivəsində nəzərdə tutulan öhdəliklərin icrasının qiymətləndirilmişdir.

Səfər çərçivəsində Quba Rayon Təhsil İdarəsində və eləcə də bir sıra təhsil obyektlərində görüşlər olmuş və birbaşa monitorinqlər aparılmışdır.

Quba Təhsil İdarəsinin müdiri Loğman Müslimov bildirdi ki, diaqnostik qiymətləndirmə hələlik başlamayıb. Hələ də 48 müəllim 5 saatdan az iş stajı ilə faəliyyət göstərir. Bu xüsusən də dağ kəndlərində müəllim çatışmamazlığı bağlıdır. Bununla belə, diaqnostik qiymətləndirmənin aparılması Quba rayonu üçün prioritet məsələlərdən hesab edilir. Çünki belə qiymətləndirmə nəticədə daha ixtisaslı və savadlı müəllimləri əmək haqqlarının yüksəlməsinə səbəb olur.



Monitorinq nəticəsində aydın oldu ki, son illər rayonda peşə təliminə diqqət artırılıb. Bununla belə, bölgələrdə peşə təhsilinin inkişafı uzun zaman tələb edir.

Quba rayonunda təhsilin ümumi göstəriciləri ilə bağlı bildirildi ki, rayonda 24 644 şagird, 2805 müəllim vardır. 137 məktəbdən 67-i tam ort, 43-ü ümumi orta, 27-si isə ibtidai məktəblərdir. Rayonda cəmi bir elektron məktəb var.




Bütün məktəblərdə valdeyn şuraları yaradılıb.  Bununla belə, heç də hamısının aktiv olduğunu söyləmək mümkün deyildir. Quba rayonunda xüsusi ehtiyaca və qayğıya ehtiyacı olan 169 şagird evdə təhsil alır. Quba rayonunda özəl təhsil sistemi inkişaf edir. Bununla yanaşı, təhsil haqqı yüksəkdir.

Monitorinq nəticəsində bəlli olmuşdur ki, hələlik rayonda adambaşına maliyyələşdirmə tətbiq edilmir. Belə mexanizm hazırlanmadığı üçün əvvəlki maliyələşmə sistemindən istifadə edilir.

Təhsildə şəffaflığın gücləndirilməsi üçün təhsilin idarədedilməsinin yaxşılaşdırılması üçün monitorinqlər və açıq dərslər aparılır.  12 illik təhsil sisteminə keçid və məktəblərinin müstəqilliyinin genişləndirilməsi istiqamətdə işlər görülür.

Xarici əlaqələr formalaşsa da hələlik müəllimlərin bilik və bacarıqlarının daha da inkişafı üçün xarici mübadilə proqramlarından istifadə edilmir.

**Quba rayonunda insan kapitalının inkişafı ilə bağlı çətinliklər**

- ✓ Yeni inşa edilən məktəb binalarnını azlığı və təmir işlərinin zəif aparılması. Monitorinq nəticəsində bəlli olmuşdur ki, məktəblərin təmirə ciddi ehtiyacı vardır. Xüsusən də dağ kəndlərində yerləşən məktəblərdə təmirin aparılması ilə bağlı çətinliklər vardır. Bu isə təhsilin keyfiyyətinə təsir göstərməkdədir.



- ✓ Kadr probleminin müşahidə edilməsi. Xüsusən də kənd məktəblərində ixtisaslı kadr problemləri vardır. Monitorinq nəticəsində bəlli olmuşdur ki, son illər 112 təyinatdan 84 nəfər iş faəliyyətini davam etdirirlər. Bildirilmişdi ki, yerli işçilərə üstünlük verilməsi daha məqsədəuyğun olardı. 11 nəfər isə yaşayış şəraiti ilə bağlı olaraq iş yerini dəyişib.

Dağ kəndlərində çalışan müəllimlər üçün əmək haqqı yüksək olmadığı üçün cəlbedici deyil.

- ✓ Kommunal xidmətlər ilə təminatda çətinliklərin olması. Kənd məktəblərinin əksəriyyətində istilik üçün mavi qazdan istifadə edilmir. Bu isə həm ixtisaslı kadrların cəlb edilməsinə, həm də təhsilin keyfiyyətinə mənfi təsir göstərir.



- ✓ İnformasiya texnologiyasından zəif istifadə. Monitorinq nəticəsində bəlli olmuşdur ki, rayonun təhsil sistemində informasiya texnologiyasının imkanlarından istifadə səviyyəi aşağı olaraq qalır. Belə ki, 137 məktəbdən 111-də informasiya texnologiyasından istfadə edilmir. Bu isə mövcud məktəblərin yalnız 19.0 faizində informasiya texnologiyasında və eləcə də internetdən istifadə deməkdir. Aydın olmuşdur ki, əksər məktəblərin yerləşdikləri kəndlərdə hətta internet xidməti belə yoxdur

- ✓ Nəqliyyat probleminin olması. Məktəblərin 70 faizi dağ kəndlərində yerləşirlər. Həmin kəndlərin rayon mərkəzi ilə birləşdirilməsində nəqliyyat problemi vardır. Bu isə həm kəndlərə ixtisaslı müəllimlərin cəlb edilməsi ilə əlaqədar çətinliklər yaradır.

Bütövlükdə, monitorinq nəticəsində bəlli olmuşdur ki, Quba rayonunda insan kapitalının inkişafı ilə bağlı son illər müəyyən irəlləyişlər olsa da təhslinin ənənəvi problemləri, kadr və vəsait çatışmazlığı müşahidə edilməkdədir.

**Qeyd:** ***Monitorinq Quba rayonunda 19-20Avqust 2016-cı il tarixində Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun icra etdiyi İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi (Swiss Agency for Development and Cooperation) "Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" (AİTEMP) qrant layihəsi çərçivəsində İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) əməkdaşları Vüqar Bayramov və Zamiq Babayev tərəfindən aparılmışdır.***